# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 02 (1707) 31 yanvar 2020 - ci il Qiymәti 50 qәpik


# Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib

**Fransa Respublikasının Prezidenti Emmanuel Makron yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edilib, hər iki tərəf əlaqələrin inkişafından məmnun olduqlarını bildirib, iqtisadi sahədə əməkdaşlığın genişləndiyi vurğulanıb.

Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri müzakirə ediblər. Prezident İlham Əliyev münaqişənin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bir daha Fransa Prezidentinə çatdırıb.

Telefon danışığı zamanı, həmçinin regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.



**BU SAYIMIZDA**




## BÖYÜK ELMİ ŞURADA 2

## ATU-da 20 Yanvar faciəsinin 30-cu ildönümü qeyd edilib 3





## Professor Vaqif Şadlinskinin 80 illik yubileyi qeyd olunub 4

## London Universitetinin professoru ilə görüş keçirilib 3



Təbib



**Yanvarın 30- da keçirilən Böyük Elmi Şuranın növbəti iclasını açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilk öncə İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskini 80 illik yubileyi və Prezident İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif edilməsi münasibətilə təbrik etdi, ona bundan sonrakı fəaliyyətində uğurlar dilədi. Bundan sonra yubileyləri qeyd olunan Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayevi və II cərrahi xəstəliklər kafedrasının müdiri, professor Rauf Ağayevi də təbrik etdi. Həmçinin bu günlərdə universitetin ümumi işlər üzrə prorektoru Natiq Xəlilovun Səhiyyə Nazirliyinə işə götürüldüyünü deyən rektor onun yerinə təyin olunan Tahir Vəliyevi şura üzvlərinə təqdim etdi.**






# Böyük Elmi Şura

Sonra gündəlikdə duran məsələlər diqqətə çatdırıldı. "Azərbaycan Tibb Universitetində 2019-cu il ərzində yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr" barədə universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərovun hesabatı dinlənildi.

Prezident İlham Əliyev tərəfindən "Təbii resursların insan kapitalına çevrilməsi" istiqamətində həyata keçirilən siyasətin təhsil sisteminin bütün pillələrinin yeniləşməsinə və inkişafına təkan verdiyini söyləyən məruzəçi dedi ki, bugünkü və gələcək inkişaf səviyyəsinə adekvat olan yüksək ixtisaslı peşəkar kadrların hazırlanması təhsilin və elmin qarşısında duran mühüm vəzifələrdən biridir: "Ölkə rəhbərliyinin milli səhiyyə və təhsil sistemlərinə xüsusi diqqət və qayğısı sayəsində Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Yoluxucu xəstəliklər kafedrasının professoru N.Hüseynova və İnsan anatomiyası və tibbi terminologiya kafedrasının dosenti A.Məmmədova «Əməkdar müəllim», Patoloji anatomiya kafedrasının müdiri, professor Ə.Həsənov, II uşaq xəstəlikləri kafedrasının dosentləri S.Ələsgərova və T.Tağı-zadə isə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Facebookda regionun ən böyük təhsil səhifəsi olan "Azərbaycan Universitetləri" tərəfindən keçirilən "2018-ci ilin ən yaxşı universiteti" sosial sorğusunun qalibi universitetimiz olub. Sorğu 3 kriteriya üzrə aparılıb - akademik göstəricilər, qəbul nəticələri və sosial mediada olan aktivlik. Universitetin rektoru, professor G.Gəraybəyli tələbələrin müraciətlərini çevik şəkildə cavablandırdığına görə "Tələbələrin dostu" sosial mükafatına layiq görülmüşdür.

Tibb kadrlarının hazırlanmasında göstərdikləri yüksək xidmətlərinə görə Psixiatriya kafedrasının müdiri, professor G. Gəraybəyli, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru R. Əsgərov, Biofiziki və bioüzvi kimya kafedrasının müdiri, akademik D.Tağıyev "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalı ilə təltif olunublar. Akademik D.Tağıyev elmin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeninə də layiq görülüb.

2019-cu ildə İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, professor V.Şadlinski "Neurology and Neyroscience Reports" adlı nüfuzlu beynəlxalq elmi jurnalın baş redaktorunun müavini təyin edilmişdir.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının baş müəllimi S.Şadlinskaya "World Research Council" (Ümumdünya Tədqiqat Şurası) tərəfindən "Best Scientist in Human Anatomy" (İnsan anatomiyası üzrə ən yaxşı alim) adına və həmin təşkilatın medalına layiq görülmüşdür.

Respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, professor Ə.Musayev 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Bu il İslam Əməkdaşlıq Təşkilatı tərəfindən "Ramia" mükafatına Azərbaycan qadınlarından ilk dəfə Allerqologiya və immunologiya kafedrasının müdiri, professor L.Allahverdiyeva layiq görülüb.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor M.Vəliyeva 2019-cu ildə Avropa Təbiətşünaslıq Akademiyasının "İlin adamı" diplomu ilə mükafatlandırılıb və həmin Akademiyanın "Fəxri professoru" seçilib.

Qidalanma və kommunal gigiyena kafedrasının professoru M.Qasımov tibb sahəsində xidmətlərinə görə Turan Elmlər Akademiyasının akademiki, II cərrahi xəstəliklər kafedrasının müdiri, professor R.Ağayev isə Azərbaycan Cərrahlar və Qastroenteroloqlar Assosiasiyasının sədri seçilmişlər.

"Təbib" qəzetinin baş redaktoru E.İsmayıl ədəbiyyatımızın tanınmış simalarından biri kimi Avrasiya Senet, Kültür, Edebiyyat və Bilim Federasiyasının İstanbul toplantısında təsis etdiyi "Türk dünyası yaşayan kültür degeri" mükafatına layiq görülüb.

Azərbaycan Nefroloqlar Cəmiyyəti Avropa Nefroloji Dərnəyinin rəsmi üzvü statusunu qazanıb. I daxili xəstəliklər kafedrasının həkim-kardioloqu Y.Rüstəmova Beynəlxalq Gənc Kardiologiya Akademiyasının vitse-prezidenti seçilib".

Sözünə davam edən R.Bəylərov kadr potensialına da toxundu: "2020-ci il yanvar ayının əvvəlinə olan məlumata əsasən ATU- da çalışan 1300 nəfərin 1100-ü professor-müəllim heyətidir. Onlardan 4-ü Rusiya Tibb Elmlər Akademiyasının akademiki, 1-i müxbir üzvü, 3-ü Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi, 7-si müxbir üzvü, 4-ü Dövlət Mükafatı Laureatı, 26-sı əməkdar elm xadimi, 45-i əməkdar həkim, 41-i əməkdar müəllim, 2-si əməkdar bədən tərbiyəsi və idman xadimi, 2-si fəxri bədən tərbiyəsi və idman işçisi, 1-i əməkdar jurnalist, 183-ü elmlər doktoru, 823-ü fəlsəfə doktoru, 143-ü professor, 369-u isə dosentdir".

2019-cu ildə ATU-da "Əhalinin sağlamlığının qorunması" haqqında Azərbaycan Respublikası Qanununa əsasən, təbabət və əczaçılıq sahəsində 3 istiqamət, 9 problem üzrə 61 elmi-tədqiqat işinin yerinə yetirildiyini diqqətə çatdıran prorektor 4 mövzunun tamamlandığını, 57 mövzu üzrə elmi işin isə davam etdiyini dedi.

R.Bəylərov onu da bildirdi ki, 2019-cu ildə universitetin Onkologiya, I Cərrahi xəstəliklər, Ümumi cərrahiyyə, I Mamalıq-ginekologiya, I Daxili xəstəliklər, Şüa diaqnostikası və terapiyası, Patoloji anatomiya, Histologiya, embriologiya və sitologiya, Biokimya, Normal fiziologiya, Tibbi mikrobiologiya və immunologiya, Ağız və üz-çənə cərrahiyyəsi kafedralarının əməkdaşları və Elmi-Tədqiqat Mərkəzi Prezident yanında Elmin İnkişafı Fondu, AMEA-nın elmi-tədqiqat proqramlarının, AR İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və beynəlxalq layihələr üzrə iş aparıblar.

ATU-nun beynəlxalq əlaqələrinin də günün tələbləri səviyyəsində qurulduğunu diqqətə çatdıran R.Bəylərov hazırda bu təhsil ocağının dünyanın 89-a yaxın nüfuzlu ali təhsil müəssisəsi ilə sıx əməkdaşlıq etdiyini, bir sıra universitetlərlə fəal tələbə və mütəxəssis mübadiləsi apardığını söylədi.

Məruzəçi 2019-cu ildə elmi-tədqiqat işlərinin nəticələrinin 10 monoqrafiya və kitabda (biri xaricdə), 21 dərslikdə, 31 dərs vəsaitində, 5 kitabça və sorğu ədəbiyyatında, 10 elmi əsərlər məcmuəsində, 1645 elmi işdə (601 elmi iş xaricdə, 1632 elmi iş respublikada), 39 metodik tövsiyədə, 9 Avrasiya patentində, 1 respublikamızın patentində öz əksini tapdığını bildirdi.

R.Bəylərov 2012-ci ildən etibarən Mövlana mübadilə proqramı üzrə Türkiyənin 17 universiteti ilə müqavilə imzalandığını diqqətə çatdırdı: "Mübadilə proqramına dair aparılan sorğu nəticəsində həm qəbul edən universitet, həm də qonaq gələn alimlər bu təcrübəni yüksək qiymətləndirmiş, hər 2 tərəf üçün faydalı olmuş, gələcəkdə də bu təcrübənin davam etdirilməsi və tələbə mübadiləsi istiqamətində işlərin aparılması nəzərdə tutulmuşdur.

2019-cu ilin oktyabrın 4-də ATU və Milli Erasmus+ ofisinin birgə təşkilatçılığı ilə "Erasmus proqramı üzrə məlumatlandırma günü" çərçivəsində ATU-nun professor-müəllim heyətinə "Horizon 2020 - əməkdaşlıq üçün imkanlar" adı altında təqdimat keçirilmişdir. Tədbirin məqsədi Erasmus proqramının Azərbaycan Universitetləri üçün verdiyi imkanlar, mövcud proqramlar və qəbul şərtləri ilə bağlı ali məktəb nümayəndələrini məlumatlandırmaqdır. Hesabat ilində türkdilli dövlətlərin əməkdaşlıq şurasının nümayəndə heyəti ATU-da qonaq olmuş və Erasmus Mundus, Mövlana mübadilə proqramları və onların icrası ilə bağlı mövcud durum haqqında müzakirə aparmışdır."

Azərbaycan tibb elminin müasir dünya tibb elminə inteqrasiyasında universitetimizin alimlərinin inkişaf etmiş ölkələrin aparıcı elmi mərkəzlərinə dəvət olunduğunu da deyən natiq keçirilən konfrans və simpoziumların mühüm əhəmiyyət kəsb etdiyini dedi. Onun sözlərinə görə, 2019-cu ildə xarici ölkələrdə keçirilən 189 müxtəlif elmi konfrans, konqres və simpoziumlarda ATU-nun 270 əməkdaşı iştirak etmişdir ki, bu da respublikanın beynəlxalq miqyasda artan nüfuzunun nəticəsidir

İxtisaslı kadrların hazırlanmasında tələbə elmi işlərinin çox mühüm əhəmiyyət daşıdığını söyləyən prorektor ATU-nun 90-illik yubileyi çərçivəsində silsilə tədbirlərin planlaşdırıldığını, gənc alimlər və Tələbə Elmi Cəmiyyətinin VI Beynəlxalq Tibb Konqresinə hazırlıq işlərinin aparıldığını da bildirdi.

Əsaslı Kitabxananın fəaliyyətinə də toxunan prorektor dedi ki, artıq 4 ildir ki, elektron kitabxananın yaradılması üzrə işlər aparılır. İRBİS – 64 avtomatlaşdırılmış kitabxana proqramı çərçivəsində yaranmış elektron kitabxanaya ədəbiyyatlar yazılmış və elektron kataloqa salınmışdır. " 2019-cu ildə kitabxana fondunun elektron kataloquna 1500 kitab, 4092 qəzet və jurnal məqaləsi daxil edilmişdir."

Məruzə ətrafında çıxış edən professorlar Nuru Bayramov, Qalib Qarayev, Çingiz Rəhimov və Ədalət Həsənov hesabatı qənaətbəxş qiymətləndirdilər. Onlar universitetin elmi istiqamətdəki uğurları ilə yanaşı, mövcud problemlərdən də söhbət açdılar. Natiqlər bu problemlərin həll edilməsi üçün öz təklif və rəylərini dilə gətirdilər.

Müzakirələri yekunlaşdıran rektor əsas diqqəti dissertasiya işlərinə yönəltdi: "Biz öz elmi işlərimizi praktiki səhiyyəyə yönəltməliyik. Yeni texnologiyanın tətbiqi dissertantın elmi işində də öz əksini tapmalıdır. Təəssüf edirəm ki, müdafiə olunan dissertasiyaların bir qədəri praktiki səhiyyə yönümlü olmamasıdır. Hesabatlar göstərir ki, elmi işlərin həm sayı, həm dərəcəsi yüksəkdir. Bu, hamını sevindirir. Amma yenə deyirəm, biz keyfiyyət haqqında düşünməliyik. Hər bir xarici tələbə bizim universiteti seçəndə o bizim özümüzü tərifləyən çıxışları yox, universitetimizin dünyada neçənci yerdə olmasını və universitetlər üçün təsdiq olunmuş beynəlxalq kriteriyaları əsas götürür. Ona görə də keyfiyyətin yaxşılaşdırılması istiqamətində çalışmalıyıq ki, reytinqimizi yüksəldə bilək."

Konfranslara da münasibət bildirən professor G.Gəraybəyli bu sahədəki problemlər üzərində xüsusi dayandı: "Çox sevindirici haldır ki, bizim klinikalarda hər gün hansısa konfrans, seminar və ya tədbir keçirilir. Bu bir tərəfdən fərəhləndirici hal olsa da, amma onların bəziləri formal xarakter daşıyır. Çünki bu keçirilən konfranslarda bir kreditlər məqamı da var. Mən bu barədə hörmətli nazirimizlə də danışmışam. Əməkdaş bir günlük konfransda iştirak edir, lakin ona 13 kredit verilib. Yaxşı, o konfransda necə iştirak edib ki, bu qədər kredit verilib. Bəzən hansısa kommersiya şirkətləri və yaxud firmaların keçirdikəri konfranslarda bizim universitetin adını təşkilatçı kimi göstərməklə hansı məqsədi güdürlər. Mən bu cür keçirilən 3 konfransı ləğv etmişəm. Kommersiya məqsədləri üçün universitetimizin adından istifadə edilən belə konfranslarda diqqətli olun. Bizim əvvəllər səsləndirdiyimiz təkliflər hələ də sözdə qalır. Əməkdaşlarımız beynəlxalq elmi konfranslarda iştirak edirlər. Bu məsələ yadınızdadırsa, Problem Komissiyasında da müzakirə olunmuşdu. Hesab edirəm ki, bu məsələni ciddiləşdirmək lazımdır. Əgər kim ərizə ilə müraciət edib, hər hansı konfransa gedibsə, qayıdanda zəhmət çəkib elmi hissəyə 3-4 dəqiqəlik informasiya versin".

Bundan başqa elektron kitabxananın yaradılmasının vacib məsələlərdən biri olduğunu vurğulayan universitetin rəhbəri Tələbə Elmi Cəmiyyətinin indiki vəziyyətindən, dissertasiyaların müasir tələblərə uyğun yazılmasından, doktarantura mərhələsinin nəticələrindən və müdafiə şurasında mövcud olan problemlərdən də bəhs etdi. Rektor bu sahənin təkmilləşdirilməsinə ehtiyac olan çatışmazlıqların gələcəkdə öz həllini tapacağını söylədi.

Çıxışında müxtəlif məsələlərə də toxunan professor G.Gəraybəyli bildirdi ki, bu günlərdə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin toplantısında Travmatologiya və Neyrocərrahiyyə kafedralarında əməkdaşların işə davamiyyətinə düzgün nəzarət edilməsi, əmək funksiyasının keyfiyyətsiz yerinə yetirilməsi, həmçinin tədrisin təşkilində nöqsanlara yol verilməsi, eləcə də əmək intizamının pozulması haqqında məsələlər müzakirə olunub və həmin kafedraların rəhbərlərinə ciddi xəbərdarlıq edilib. Yaranmış vəziyyət geniş müzakirə edildikdən sonra hər iki kafedranın müdiri öz ərizələri əsasında tutduqları vəzifədən azad olunublar.

Sonda dissertasiya işlərini təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırdı.

**Mənsur ƏLƏKBƏRLİ**

# ATU-da 20 Yanvar faciəsinin 30-cu ildönümü qeyd edilib

## "Bu vəhşiliyi törədənlər cəzalandırılmalıdır"

**30-cu ilənümünü qeyd etdiyimiz 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilən ən ağır cinayətlərdən biri, insanlığa qarşı yönələn təcavüzdür. Bu fikir Azərbaycan Tibb Universitetində 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş anım mərasimində səslənib.**







Mərasimdən öncə universitet rəhbərliyi, professor-müəllim heyəti və tələbələr ATU-da şəhid tələbələrin xatirəsinə ucaldılan abidəni ziyarət edib, önünə əklil qoyublar.

Sonra anım mərasimi universitetin iclas zalında davam edib.

Toplantını açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu gün Azərbaycanın bütün sahələrdə qazandığı nailiyyətlərin, xarici siyasətdə əldə etdiyi uğurların birbaşa müstəqilliyimizlə əlaqədar olduğunu bildirib: "Çünki biz müstəqilliyimizi əldə etməsəydik nə siyasi-iqtisadi, nə də elmi-mədəni nəticələr əldə edə bilməzdik. Lakin bu müstəqillik heç də rahat şəkildə, asan yolla və ən əsası az qurbanlar nəticəsində qazanılmayıb. Bəli, azadlıq yolunda apardığımız mübarizədə axıdılan şəhid qanlarının hesabına müstəqilliyimiz bərpa olunub və bu gün 20 Yanvar hadisəsinin xüsusi tarixi əhəmiyyəti vardır. Həmin gecə baş verənləri nahaq yerə faciə adlandırmırıq. Bir neçə saat ərzində küçələrə çıxmış əliyalın, dinc əhaliyə qarşı zirehli texnika çıxarıldı, yeni silah növlərindən istifadə olundu. İnsanlara qarşı görünməmiş vəhşilik törədildi, yüzlərlə günahsız insan qətlə yetirildi. Çox təəssüflər olsun ki, xalqımıza qarşı edilən bu vəhşiliyi və hərbi təcavüzü törədənlər hələ də cəzasız qalıblar".

Sözünə davam edən rektor 1990-ci il qanlı 20 Yanvar hadisələrinin xalqımızdakı həmrəylik hislərini gücləndirdiyini, millətimizi daha sıx birləşdirdiyini qeyd edib: "Hər bir xalqın tarixində bütövlükdə həmin xalqın inkişafına, bir millət kimi formalaşmasına, müstəqilliyini qazanmasına və qoruyub saxlamasına təsir edən xüsusi günlər olub. Bizim tarixdə də 20 yanvar o günlərdən biridir. 20 Yanvar faciəsini Azərbaycan Milli ruhunun qələbəsi adlandırmaq olar. Həmin dövrdə telefon, whatsapp kimi şəbəkələr, rabitə növləri yox idi. Hətta olanlar da işləmirdi. Yalnız ürəyinin, düşüncəsinin və milli ruhun çağırışı ilə milyonlarla insan Azadlıq meydanına axışdı. Və şəhidlərimizin dəfn mərasimi həmin qələbənin ilk rəmzinə çevrildi. Bütün dünya gördü ki, Azərbaycan xalqını nəinki sındırmaq mümkün olmadı, əksinə bu faciə insanları bird aha birləşdirdi".

Professor G.Gəraybəyli çıxışının sonunda bu qanlı faciəni törədənlərin tezliklə beynəlxalq ictimaiyyət qarşısında öz layiqli cəzalarını alacaqlarına əminliyini bildirib.

Sonra ATU-nun Tələbə Gənclər Təşkilatının 20 Yanvar hadisələrindən bəhs edən video-çarxı təqdim olunub.

Bundan başqa, universitetin Ümumi cərrahlıq kafedrasının professoru Məhəmməd Kərimov, I Cərrahi xəstəliklər kafedrasının professoru Eldar Əliyev və digər çıxış edənlər Azərbaycan xalqına qarşı yönələn bu dəhşətli cinayəti, eyni zamanda qəhrəmanlıq tariximizdə dərin hüzn və milli qürur günü kimi dəyərləndirdilər. Onlar qan yaddaşımıza ömürlük həkk olunan 20 Yanvar gecəsi haqqında acı xatirələrini bölüşüblər.

II Müalicə-profilaktika fakültəsinin II kurs $218^{6-B}$ qrup tələbəsi Dilbər Əliyeva tələbələr adından çıxış edərək bu günki Azərbaycan gəncliyinin müstəqilliyimiz uğrunda həlak olan şəhidlərimizin ruhunu daim uca tutduğunu və onların əziz xatirəsinin qədirbilən xalqımız tərəfindən daim ehtiramla yad olunacağını söyləyib.

# London Universitetinin professoru ilə görüş keçirilib

**Yanvarın 17-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında Böyük Britaniyanın London Kollec Universitetinin "Tibbi və reablitasiya" proqramının rəhbəri, professor Maykl Pol Luzmorla görüş keçirilib.**




Hörmətli qonağı toplantı iştirakçılarına təqdim edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor



Surxay Hadıyev bildirdi ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında artıq 2017-ci ildə ingilis dilli "İdman və Tibbi reabilitasiya" proqramı fəaliyyət göstərir. Bu proqramın direktoru London Kollec Universitetinin professoru, beynəlxalq boks federasiyasının tibbi komissiyasının sədri, Britaniyanın milli olimpiya komandasının Baş həkimi Maykl Pol Luzmordur.

Tədbirdə iştirak edən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Təhminə Tağızadə məlumat verdi ki, magistr proqramı modul tipli proqramdır. Modullardan birinin tədrisi Böyük Britaniyanın paytaxtı London şəhərində İdman, fiziki hərəkətlər və Sağlamlıq İnstitutunda, İngiltərə İdman İnstitutunda və London Kollec Universitetində keçirilir. Tələbələr orada praktika keçir, pasiyentlərlə və idmançılarla işləyir. Bu universitet Kembric və Oksford universitetlərindən sonra 3-cü olmaqla dünyanın 70 min universiteti içərisində 8-ci yerdədir.

Burada modul zamanı tədris aparan müəllimlər İdman, fiziki hərəkətlər və Sağlamlıq İnstitutunun və London Kollec Universitetinin professorlarıdır. Onlar dünyanın bir çox universitetlərində iş və tədris təcrübəsinə malikdirlər və eyni zamanda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistrlərinə da dərs deyirlər. Tədris prosesinin sonunda fərqlənmə ilə oxuyan magistrlərin London Kollec Universitetində PHD etmək imkanı olur.

Sonra professor Maykl Pol Luzmor Azərbaycanda olmağından məmnun qaldığını söylədi və dünyada, eləcə də ölkəmizdə baş tutan idman yarışları zamanı həyata keçirilən bir sıra layihələrin və proqramların hazırlanmasında onların məzunlarının apardıqları işlərdən bəhs etdi. Onların proqramının modul tipli olduğunu və birinin digərinin ardınca həyata keçirildiyini qeyd edən professor dedi ki, ölkəmizdə keçirilən "Avropa oyunları"nın açılış mərasimi, "İslam oyunları" və "Formula-1" yarışlarının dünya səviyyəsində hazırlanmasını misal çəkmək olar.

Fiziki hərəkətin insanlara sağlam həyat bəxş etdiyini deyən professor bir sıra ağır xəstəliklərin məhz idmanla aradan qaldırıldığını və sağlam həyat tərzini qoruyub saxlamaq üçün idmanın bir çox növləri üzrə məşğul olmağın zəruriliyini vurğuladı.

Çıxışının sonunda professor Maykl Pol Luzmor toplantı iştirakçılarının suallarını da cavablandırıb.

Görüşdə universitetin rezidentura şöbəsinin müdiri, professor Nailə Sultanova, universitet klinikalarının rezidentləri, həmçinin rezidentura şöbəsinin Tədris Cərrahiyyə Klinikası üzrə məsul şəxsi Namiq Xəlilov da iştirak edirdilər.

**"TƏBİB"**

# Səhiyyə naziri Azərbaycanda koronavirusa qarşı profilaktik tədbirlərin gücləndirilməsi ilə bağlı əmr imzalayıb

**◆ Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev "Yeni 2019-nCoV koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə" əmr imzalayıb.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əmr respublikada yeni koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə imzalanıb.

Sənəddə tibb müəssisələrində sanitariya-gigiyena, əksepidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya tədbirlərinin həyata keçirilməsi işinin gücləndirilməsi, kəskin respirator virus infeksiyasına şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılması və təchiz olunmasının təmin edilməsi üçün müvafiq tapşırıqlar verilib.

Həmçinin zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiq edilməsi, tibb personalının fərdi mühafizə vasitələrindən (maskalardan) istifadəsinin təmin olunması, dərman preparatlarının, dezinfeksiyaedici maddələrin, həmçinin tibb personalı üçün fərdi mühafizə vasitələrinin ehtiyatının yaradılması əmrdə öz əksini tapıb.

Eyni zamanda, əmrdə xəstəlik hallarının ölkəyə gətirilməsinin qarşısının alınması məqsədilə xəstəlik




baş vermiş ölkələrdən gələn şəxslər üzərində tibbi müşahidənin aparılmasında Dövlət Gömrük Komitəsinin və Səhiyyə Nazirliyinin mütəxəssislərinin qarşılıqlı fəaliyyətinin təmin olunması da öz əksini tapıb.

Qeyd edək ki, Dünya Səhiyyə Təşkilatının məlumatına əsasən 2019-cu ilin dekabr ayında ilk dəfə olaraq Çinin Yuhan şəhərində naməlum mənşəli pnevmoniyanın törədicisi kimi yeni 2019-nCoV koronavirusu aşkar edilib və onun törətdiyi xəstəliyin qeydiyyatına başlanılıb.

2020-ci ilin yanvar ayında xəstəliyin Çində alovlanması və artıq Tailand, Cənubi Koreya, Yaponiya və digər bir sıra ölkələrdə də yayılması halı davam edir.

# Professor Vaqif Şadlinskinin 80 illik yubileyi qeyd olunub

**Yanvarın 24-də ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, Rusiya Tibb Elmləri Akademiyasının və Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, professor Vaqif Şadlinskinin 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**

Universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev ilk növbədə professor-müəllim heyətini, qonaqları və bütün tədbir iştirakçılarını salamlayıb və qeyd edib ki, Azərbaycan ziyalılarının, elm xadimlərinin, səhiyyə, təhsil işçilərinin yubileylərinin keçirilməsi artıq ənənə halını alıb. Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan bu ənənəni möhtərəm prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyini, xüsusi fəaliyyətləri ilə seçilən şəxslərə həmişə yüksək qiymət verildiyini bildirib. Bu gün 80 illik yubileyi qeyd edilən professor Vaqif Şadlinskinin ölkə başçısının Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülməsini bu diqqət və qayğının bariz nümunəsi kimi dəyərləndirən S.Əliyev yubilyarı həm 80 illik yubileyi, həm də ali mükafatla təltif olunması münasibətilə təbrik edib. Eyni zamanda universitetin rəhbərliyi, professor-müəllim heyəti və çoxminli tələbələri adından cənab Prezidentə təşəkkürünü ifadə edib.

Vaqif müəllimin fəaliyyətinin elmi, pedaqoji və ictimai istiqamətlərindən söhbət açan S.Əliyev onun şərəfli ömür yolunun ən yaddaqalan məqamlarından danışıb. O, Vaqif Şadlinskinin rəhbərlik etdiyi İnsan anatomiyası və tibbi terminologiya kafedrasının universitetdə ən çox elmlər doktoru olan kafedralardan biri olduğunu diqqətə çatdırıb.

Onu da vurğulayıb ki, Vaqif müəllimin rəhbərlik etdiyi İnsan anatomiyası və tibbi terminologiya kafedrası nəinki ölkəmizdə, MDB məkanında, hətta digər xarici ölkələrdə də ən nüfuzlu kafedra kimi tanınır, fəaliyyəti ayrıca bir institutun fəaliyyətinə bərabərdir. Kafedranın nəzdindəki Anatomiya Muzeyinin zənginliyini dünyanın ən məşhur muzeyləri ilə müqayisə etmək mümkündür.

Öz çıxışında V.Şadliniskinin insani keyfiyyətlərini, xarakterindəki bütövlüyü, cəsarətini, mübarizliyini xüsusi qabardan prorektor 1988-1993-cü illərin xatirələrini də tədbir iştirakçıları ilə bölüşüb.

Universitetin rektoru, professor Gəray Gəraybəylinin təbrikini və xoş sözlərini də yubilyara çatdıran prorektor şərəfli bir ömür yolu keçən Vaqif müəllimə möhkəm cansağlığı, gələcək fəaliyyətində uğurlar arzulayıb.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru Mübariz Allahverdiyev çox çətin, lakin şərəfli və zəngin bir ömür yolu keçən, məşhur Şadlinskilər şəcərəsinin layiqli davamçısı, professor Vaqif Şadlinski haqqında ətraflı məlumat verib: "Vaqif Bilas oğlu Şadlinski 1940-cı ildə qədim Azərbaycan torpağı olan Vedi rayonunda dünyaya gəlib. 1948-1950-ci illərdə deportasiya nəticəsində ailə üzvləri ilə birlikdə Şəmkir rayonunun Leninkənd (indiki Çinarlı) qəsəbəsində məskunlaşıb. 1959-cu ildə Leninkənd orta məktəbini bitirdikdən sonra ordu sıralarında hərbi xidmətdə olub. Ordudan tərxis olunduqdan sonra, 1963-cü ildə müvəffəqiyyətlə qəbul imtahanlarını verərək, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Stomatologiya fakültəsinə daxil olub və 1968-ci ildə institutu fərqlənmə diplomu ilə başa vurub.

Bir müddət Terapevtik stomatologiya kafedrasında baş laborant vəzifəsində çalışan V.Şadlinski 1970-ci ildə öz xahişi ilə İnsan anatomiyası kafedrasında baş laborant vəzifəsinə keçirilib və fəaliyyətinin 50 illik dövrü bu kafedra ilə bağlı olub. Assistentlikdən kafedra müdiri, professor vəzifəsinədək yüksəlib".

M.Allahverdiyev V.Şadlinskinin ölkə səviyyəsində yerinə yetirdiyi ictimai işləri, beynəlxalq əlaqələri, çap etdirdiyi elmi-pedaqoji əsərləri, rəhbərliyi altında hazırlanan elmi-tədqiqat işləri haqqında da geniş söhbət açaraq 32-dən artıq dərslik, 45-dən çox metodiki dərs vəsaitinin müəllifi olduğunu, onun rəhbərliyi altında 9 elmlər doktoru, tibb üzrə 29 fəlsəfə doktoru hazırlandığını qeyd edib.

Həmçinin, yubilyara beynəlxalq miqyasda verilən elmi və fəxri adları, yerli və beynəlxalq təltifləri diqqətə çatdıraraq onu kafedranın bütün əməkdaşları adından təbrik edib: "Arzu edirik ki, 90, 100 illik yubileylərinizi də belə şövqlə, gənclik həvəsi, gənclik təravəti ilə qarşılayasız".







Respublika Tibb İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri Emin Əfəndiyev, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru Rafiq Əsgərov, İctimai fənlər kafedrasının professoru Fəxrəddin Məmmədov, Nəsimi rayonunun keçmiş icra başçısı Tahir Quliyev, Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov, İqtisad Universitetinin kafedra müdiri, professor Əvəz Ələkbərov, şair Fəxrəddin Ziya, "Dədə Qorqud" Milli Fondunun prezidenti Eldar İsmayıl, Türk Dünyası Beynəlxalq Araşdırmaları Akademiyasının Azərbaycan təmsilçisi, professor Elçin İsgəndərzadə də yubilyarı təbrik edərək onun elmə, tibbə, konkret olaraq anatomiyaya bağlı olan həyat yolundan epizodlar danışıblar.

Professorlar Ağasəmid İsayev və Nəriman Mövsümov yubilyarın ünvanına respublikamızdan və xarici ölkədən göndərilən təbrik məktublarını və teleqramları oxuyublar. Ayrı-ayrı qurumların xüsusi mükafatları və döş nişanları da yubilyara təqdim olunub.

Professor Vaqif Şadlinski ailə üzvlərinin, nəvələrinin də qatıldığı yubiley tədbirinə təşrif buyuran hər kəsə öz təşəkkürünü bildirib. Onu təbrik etməyə gələn tələbə yoldaşlarına, dostlarına və tələbələrinə minnətdarlıq edərək deyib: "İlk dəfə 1970-ci il sentyabrın 1-də müəllim kimi auditoriyaya girmişəm. O vaxtdan sonra çox adamlar qolumdan tutub, himayədarlıq edib. Mənim elmi fəaliyyətimə həmişə böyük qayğı göstərən və dəstək verən mərhum və unudulmaz müəllimim, professor Kamil Balakişiyevə, eləcə də həyatımın müxtəlif mərhələlərində mənə kömək əli uzadan hər kəsə minnətdarlıq edirəm. Ən böyük minnətdarlığım isə ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən və dünən məni "Şöhrət" ordeni ilə təltif edən Prezident İlham Əliyevədir. Bu, indiyə qədər mənim layiq görüldüyüm ən yüksək ordendir. Əməyə layiqli qiymət veriləndə insan ruhlanır".

V.Şadlinski 80 illik yubileyində ölkə başçısı tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmasını onun fəaliyyətinə verilən ən yüksək qiymət, eyni zamanda böyük məsuliyyət kimi dəyərləndirib. Səhiyyə naziri, professor Oqtay Şirəliyevin və ATU-nun rektoru, professor Gəray Gəraybəylinin zəng edərək onu yubileyi münasibətilə təbrik etməsindən məmnunluğunu da dilə gətirib.

**Arif MƏMMƏDLİ**

# Nümayəndələrimiz "Open Access" mövzusunda seminarda iştirak ediblər

**Azərbaycan Tibb Universitetinin bir qrup əməkdaşı AR Təhsil İnstitutunda "Azərbaycan ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi" layihəsi çərçivəsində "Open Access" mövzusunda keçirilən seminarda iştirak ediblər.**



Seminarda universitetimizi Təhsilin keyfiyyətinin təminatı və İnnovasiya şöbəsinin müdiri Nigar Sədiyeva, Əsaslı Kitabxananın nümayəndəsi Vüsalə Medhiyeva və elmi-metodika üzrə koordinatoru Sevinc Muxtarova təmsil ediblər.

Beynəlxalq ekspert Daniel Spichtinger tərəfindən aparılan seminarda Open Access-in mahiyyəti və istifadə metodları, Open Access sisteminin qurulması və Azərbaycanda bu sahədə görülən işlər barədə ətraflı məlumatlar verilib və planlar barədə müzakirələr aparılıb.

# Magistraturaya sınaq imtahanı qəbul modeli əsasında aparılacaq

**Fevralın 2-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq istəyənlər üçün sınaq imtahanı keçiriləcək.**




AZƏRTAC xəbər verir ki, sınaq imtahanı qəbul modeli əsasında təşkil olunacaq. İmtahan bütün binalarda eyni vaxtda - saat 11-də başlanacaq. İmtahan binasına buraxılış saat 10:45-də başa çatacaq.

İmtahanlar Bakı şəhəri ilə yanaşı, Gəncə və Naxçıvan şəhərlərində də təşkil olunacaq.

Xatırladaq ki, sınaq imtahanında iştirak etmək istəyənlərin yanvarın 21-dən 27-dək DİM-in internet saytında qeydiyyatı aparılıb.

**ATU-nun mətbuat xidməti**

# Əmək intizamını pozduqlarına görə bəzi əməkdaşlara ciddi xəbərdarlıq edilib və töhmət verilib

## Həmkarlar İttifaqı Komitəsi bəzi əməkdaşlara töhmət verilməsinə razılıq verib

**◆Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsinin Rəyasət Heyətində bəzi kafedra əməkdaşlarının üzürsüz səbəbdən işdən qalması, əmək funksiyasını yerinə yetirməməsi, bəzi işçilərin isə işini keyfiyyətsiz yerinə yetirməsi ilə bağlı məsələlərə baxılıb.**




ATU-nun Travmatologiya kafedrasının assistenti Kazım Emil Mayıl oğlunun üzürsüz səbəbdən iş buraxması, əmək funksiyasını yerinə yetirməməsinə dair Həmkarlar İttifaqına ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən təqdimat daxil olub. Komitənin sədri, dosent C.Qasımov bildirib ki, Rəyasət Heyətinin toplantısında həmin təqdimat obyektiv araşdırılıb. Müzakirələr nəticəsində qeyd olunub ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci bəndinə əsasən, əmək funksiyasını keyfiyyətsiz yerinə yetirdiyinə görə Kazım Emil Mayıl oğluna sonuncu xəbərdarlıqla şiddətli töhmət verilməsinə razılıq verməliyik. Bununla əlaqədar rektora müraciət olunub.

ATU-nun Həmkarlar İttifaqı Komitəsi Rəyasət Heyətinin 15 yanvar 2020-ci il tarixli 33 saylı protokolunda bildirilir ki, Emil Kazım 30 oktyabr, 14 və 21 noyabr, həmçinin 6,18 və 19 dekabr 2019-cu il tarixlərində üzürlü səbəb olmadan iş buraxıb. Ona görə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin 186-cı maddəsinin ikinci bəndinə əsasən travmatologiya kafedrasının assistenti Kazım Emil Mayıl oğluna sonuncu xəbərdarlıqla şiddətli töhmət verilməsi qərara alınıb. Həmçinin ona xəbərdarlıq edlib ki, belə hal bir daha təkrarlanarsa, daha ciddi tədbirlər görüləcək.

Həmkarlar İttifaqı Komitəsinin Rəyasət Heyətinin üzvləri Travmatologiya kafedrasında əməkdaşların, o cümlədən professor-müəllim heyətinin işə davamiyyətinə nəzarət etmədiyinə və bununla kafedrada tədrisin təşkilində yaranmış ciddi pozuntulara yol verdiyinə görə kafedra müdiri, professor Əhməd Əhmədzadəyə də xəbərdarlıq olunmasını tövsiyə ediblər.

Həmkarlar İttifaqı Komitəsinin Rəyasət Heyətinin iclasında həmçinin ATU-nun neyrocərrahiyyə kafedrasının müdiri, professor Sabir Etibarlının əmək və icra intizamını pozması haqqında məsələ də müzakirə olunub. Əmək funksiyasını keyfiyyətsiz yerinə yetirdiyinə görə ona töhmət verilməsinə dair razılıq əldə olunub.

Fakültə dekanlarına və həmkarlar təşkilatlarının sədrlərinə tapşırılıb ki, digər kafedralarda belə halların bir daha təkrarlanmaması üçün Həmkarlar İttifaqı Komitəsi Rəyasət Heyətinin qərarı kafedra əməkdaşlarının nəzərinə çatdırılsın.

# Çindən gələn vətəndaşlarda koronavirus əlamətləri aşkar edilsə, onlar xüsusi həkim nəzarətində saxlanılacaqlar

**◆ Son vaxtlar koronavirusun yeni növü olan 2019-nCoV virusunun yayılması bütün dünyada çox böyük narahatlığa səbəb olub və xəstəlik əhali arasında xof yaradıb. Qeyd etmək istəyirəm ki, ölkəmizin səhiyyə sistemi hər hansı yoluxucu xəstəliklə mübarizə aparmaq iqtidarındadır. Səhiyyə Nazirliyi bu məqsədlə profilaktik tədbirlər hazırlayıb.**



Bu sözləri Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev deyib.

Onun verdiyi məlumata görə, nazirlik Çində aşkarlanan koronavirusla əlaqədar profilaktik tədbirlər hazırlayıb. Ağciyər Xəstəlikləri İnstitutu, Yoluxucu xəstəliklər xəstəxanası, ayrı-ayrı stasionar tibb ocaqları bu məqsədlər üçün ayrılıb və xəstəlik aşkar edilərsə, xəstələnənlərin müalicə olunması üçün həmin müəssisələrdə bütün lazımi dərman vasitələri var. Bunun üçün stasionarlar ayrılıb, əhali məlumatlandırılıb.

Baş epidemioloq onu da deyib ki, insanlar özlərini qorumalı, xəstə halda iş yerinə və kütləvi yerlərə getməməli, maskadan istifadə etməlidirlər. Çinə getməyə hazırlaşan vətəndaşlardan səfərlərini təxirə salmaları tövsiyə olunur. Çindən gələn vətəndaşlarda hansısa xəstəlik əlaməti şübhə doğurarsa, onlar mütləq nəzarətə götürüləcəklər. Laboratoriya müayinələri nəticəsində xəstəliyə yoluxma faktı təsdiq olunsa, onların müalicəsi müasir şəraitdə və həkim nəzarəti altında aparılacaq.

# “Yeni Nəsil Antipsixotiklərin Rasional İstifadəsi” mövzusunda mühazirə

**Yanvarın 30-da Farmakologiya kafedrasında “Yeni Nəsil Antipsixotiklərin Rasional İstifadəsi” mövzusunda seminar keçirilib. Seminarı giriş sözü ilə açan kafedranın müdiri, professor Musa Qəniyev qeyd edib ki, biz adətən semestrlər ərzində fasilələr yarananda, yeni yanvar və iyun ayında dərslər qurtarandan sonra elmi-praktik seminarlar keçiririk.**

Tədris prosesinin yaxşılaşdırılması üçün nəzərdə tutulan bu seminarlarda növbəti tədris rübündə keçiriləcək dərslərin ayrı-ayrılıqda müzakirəsini aparırıq: “Əsas məqsədimiz yenilikləri ora əlavə etmək, tələbələrin həmin dərsləri daha rahat qavramasının yollarını müəyyənləşdirməkdir. Yəni bu, sırf metodik məqsəd daşıyır. Farmakologiya tibbin baza fənnidir, elə bir elm sahəsidir ki, hər gün yeniləşir. İstəyirik ki, bu yeniliklər barədə müəllimlərimiz məlumatlı olsunlar. Ancaq 2019-2020-ci tədris ilinin payız semestrində tədris yükü həddindən artıq çox olduğundan müəllimlərimizdə böyük yorğunluq vardı. Ona görə də belə qərara gəldik ki, bu tədris rübünün sonunda müəllimlərə 1-2 həftəlik istirahət verək, yəni elmi-praktik seminarın formatını dəyişərək kliniki kafedralarımızda olan seçilmiş mütəxəssislərin məruzəsini dinləyək. Hazırda ruhi xəstəliklərin həddindən artıq çoxluğunu, dünya əhalisinin üçdə birinin psixotrop dərmanlar qəbul etdiyini nəzərə alaraq ilk növbədə psixiatrlardan birini dəvət etmək qərarına gəldik. Müəllimlərimizlə məsləhətləşib insanlara münasibəti, elmi potensialı ilə seçilən, yüksək ixtisaslı mütəxəssis kimi xalqa xidməti hər hansı vəzifədən üstün tutan Dr. İkram Rüstəmovun üzərində dayandıq. Çox sağ olsun, vaxtının məhdudluğuna baxmayaraq dəvətimizi qəbul etdi. Ümidvaram ki, yeniliklərlə zəngin maraqlı bir məruzə dinləyəcəyik.”

ATU-nun Psixiatriya kafedrasının assistenti, t.ü.f.d., uşaq və yeniyetmə psixiatrı Dr. İkram Rüstəmov dəvətə görə təşəkkürünü bildirərək farmakoloqlara dərmanlardan danışmağın böyük cəsarət tələb etdiyini, amma interaktiv bir müzakirə olarsa, hər iki tərəfin kifayət qədər faydalanacağını deyib.

Antipsixotiklərin qısa tarixçəsini diqqətə çatdıran İ.Rüstəmov xəstələrin müalicəsindən əvvəl müəyyən araşdırmaların aparılmasının vacibliyinə toxunub.

Xəstə və yaxınlarının müalicədən gözlədiyi nəticələrin tibbi ehtiyaca uyğunluğu, xəstənin sosial və ailə mühitinin bu müalicəyə necə təsir göstərməsi, valideyn və ya yaxınlarının müalicəyə nəzarət edə bilməsi barədə cəmiyyətdə aktual olan suallara aydınlıq gətirib. Eyni zamanda əlavə müalicələrə ehtiyac olub-olmaması, xəstənin müalicəyə necə yanaşması, müalicənin xəstənin sosial və akademik həyatına necə təsir göstərəcəyinə, tətbiq edilən dərmanın təsir və əks təsirlərinin tam nəzərə alınmasına dair fikirlərini də tədbir iştirakçıları ilə bölüşüb.





İkinci nəsil AR-lər olan Aripiprazol, Risperidon, Kvetiapin, Olanzapin, Ziprasidon, Sertindol, Asenapin, İloperidon, Lurasidon, Brekspiprazol, Kariprazin, Paliperidon və Klozapin haqqında məlumat verən məruzəçi həmin preparatların farmodinamikasından da söhbət açıb: “Əzələdaxili inyeksiyada bioyararlanma yüksəkdir. Yüksək lipofilik, zülala bağlanan xüsusiyyətə malikdir. Beyində, ağciyərdə, süddə və digər toxumalarda yığıla bilər. Oral alınmadan 2-4 saat, inyeksiyadan isə 15-30 dəqiqə sonra serumda müşahidə edilir. Antipsixotiklər yağda tez həll olur, qan-beyin baryerini sürətlə keçir, kök insanlarda yığıla bilir. Plazma zülallarına bağlanmağa meyillidir, beyin konsentrasiyası serumun 10 qatı ola bilər”.

Dr.İkram Rüstəmov onu da vurğulayıb ki, bütün AP-lər QC-də Sitoxrom P450 (CYP) fermenti vasitəsi ilə metabolizə olunur. Siqaret CYP fermentini aktivləşdirərək AP-lərin metabolizmasını sürətləndirir. Mütəxəssisin sözlərinə görə, davranış pozuntularında partlayıcı tərzdə aqressivlik, inkişaf pozuntularında agitasiya və zərər verən davranış problemləri, şizofreniya, erkən dövr psixotik depressiya, üzvi mental pozuntuların psixotik simptomları və KBT sonrası davranış problemləri kliniki göstəriş üçün əsasdır: “Müalicədən əvvəl tam fiziki müayinə (müalicə başlanmazdan 6-12 ay əvvələ qədər) və tam anamnez aparılmalıdır.



Xəstədə və ailəsində metabolik xəstəlik varsa, AQŞ, xolesterin və lipid panelinin yoxlanılması, çəkinin və BKİ-nin ölçülməsi vacibdir. Nevroloji müayinə və EPS başda olmaqla hərəkət pozuntularına xüsusi diqqət yetirilməlidir. Yəni çəki hər ay, BKİ 4-6 ay, hərəkət pozuntuları isə 6-12 ay müddətində mütləq yoxlanılmalıdır”.

AP-lərə aid preparatların ayrı-ayrı xüsusiyyətlərindən, fərqli dozalarla tətbiqindən danışan psixiator bildirib ki, Risperidon 15 yaşaltı uşaqlarda 0.25 mg/gün doza ilə başlayıb, 3-7 gün ara ilə titrasiya edilməlidir. 16 yaşüstü gənclərdə 0.5-1.0 mg/gün doza ilə başlana bilər. Az dozada başlayıb, yavaşca yüksəltmək məsləhətdir.

İnteraktiv şəraitdə keçən elmi-praktiki seminarda farmakoloqların çoxsaylı sualları cavablandırılıb.

**A.KAMRANOĞLU**

# Xatirələrdə yaşayan səmimi insan, istedadlı alim

**◆ AMEA-nın müxbir üzvü, professor, kimya elmləri doktoru Rauf Əliməmməd oğlu Babaxanov doğum günündən 90 il ötür.**

Rauf Əliməmməd oğlu Babaxanov 24 dekabr 1929-cu ildə Ağstafa şəhərində dünyaya gəlib. Orta məktəbi Qazaxda bitirəndən sonra, 1948-ci ildə Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olub. Universiteti 1953-cü ildə fərqlənmə diplomu ilə bitirib, AMEA-nın Kimya İnstitutuna laborant işinə göndərilib və elə həmin ildə də institutun aspiranturasına daxil olub. 1956-cı ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1956-ci ilə qədər AMEA-nın Neft Kimya Prosesləri İnstitutunda kiçik və böyük elmi işçi vəzifələrində çalışıb, 1965/1969-cu illərdə AMEA-nın Aşqarlar Kimyası İnstitutunda "Aşqarların sintezinin nəzəri əsasları və təsir mexanizmi" laboratoriyasına rəhbərlik edib. 1966-cı ildə "Aromatik və tsikloheksan sırası birləşmələrin alkilləşmə və halogenalkilləşmə reaksiyalar sahəsində tədqiqatlar və reaksiya məhsullarının bəzi çevrilmələri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 1967-ci ildə professor elmi adını alıb.

R.Babaxanov 1969-cu ildə Azərbaycan Tibb İnstitutunun "Üzvi kimya" kafedrasına müdir seçilmiş və ömrünün axırına qədər bu vəzifədə çalışmışdır.

Eyni zamanda 1969/1973-cü illərdə Əczaçılıq fakültəsinin dekanı olub. 1980-ci ildə AMEA-nın müxbir üzvü seçilib.

R.Babaxanovun rəhbərliyi ilə aparılan elmi-tədqiqat işləri 1 monoqrafiya, 200-dən artıq elmi əsərdə, o cümlədən 31 müəlliflik şəhadətnaməsində öz əksini tapıb. Onun rəhbərliyi ilə 2 elmlər doktoru və 18 elmlər namizədi hazırlanıb. O, həmçinin elmlər namizədi və elmlər doktoru dərəcəsi verən İxtisaslaşmış Şuranın üzvü olub.



R.Babaxanov uzun sürən ağır xəstəlikdən sonra 29 aprel 1992-ci ildə vəfat edib.

İstedadlı alim, səmimi insan və qayğıkeş müəllim olan Rauf müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**D.TAĞIYEV**
*AMEA-nın vitse-prezidenti, ATU-nun biofiziki və bioüzvi kimya kafedrasının müdiri*

# Həkim hər kəsin ildə bir dəfə endoskopik müayinədən keçməsini tövsiyə edir

**Müasir tibbdə endoskopik müayinə və müalicə sahəsi mühüm bölmələrdən hesab olunur. Bu sahə ölkəmizdə də kifayət qədər inkişaf edib və yüksək səviyyəli, təcrübəli mütəxəssislər insanların sağlamlığının keşiyində dayanırlar.**



Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında bu sahə ilə məşğul olan Diaqnostik və invaziv endoskopiya şöbəsi fəaliyyət göstərir. Adıçəkilən şöbəyə rəhbərlik edən, I Cərrahi xəstəliklər kafedrasının dosenti Tarverdi Rzayev şöbədə aparılan müasir müayinə-müalicə üsulları ilə bağlı "Təbib" qəzetinə ətraflı məlumat verib. Onun bildirdiyinə görə, invaziv endoskopiya ölkəmizdə 2000-ci illərin əvvəllərindən tətbiq olunmağa başlayıb.

Ölkəmizdə bu sahənin inkişafında özünün xidmətlərindən söhbət açan dosent T.Rzayev onun rəhbərlik etdiyi şöbədə xəstələrin mədə-bağırsaq sisteminin, öd yollarının, yuxarı tənəffüs yollarının, bronxların müayinə və müalicə olunduğunu, adıçəkilən orqanlarda lazımi əməliyyatların aparıldığını bildirib. O, həmçinin müasir avadanlıqlar ilə təchiz olunmuş şöbədə rəqəmsal texnologiya vasitəsi ilə selikli qişada patologiyaları aşkar etməyin mümkün olduğunu da qeyd edib. İnvaziv endoskopiyanın diaqnostik endoskopiyadan üstün və fərqli cəhətlərini belə izah edib: "Sovet məkanında əsasən diaqnostik endoskopiya tətbiq olunurdu. Xəstənin qida borusu, mədəsi və ya da yoğun bağırsağı müayinə olunar, əgər polip aşkarlanardısa, cərrahi yolla aradan qaldırılardı. O zaman xəstədə daxili qanaxma baş verərdisə, onun qarşısını almaqda həkimlər problemlə üzləşərdilər. Bu da əksər hallarda insan həyatının itirilməsi ilə nəticələnərdi. Amma müasir avadanlıqların tətbiqi ilə əlaqədar imkanlar çox dəyişib. Biz müasir texnologiyaların imkanlarından istifadə etməklə daxili qanaxma ilə şöbəmizə müraciət edənlərin üzləşdikləri təhlükəni aradan qaldırmaq imkanlarına malikik."

Diaqnostik və invaziv endoskopiya şöbəsində təcrübəli, savadlı həkim və tibb bacılarının işlədiyini qeyd edən şöbə müdiri özünün də Ankarada Hacəttəpə Universitetində və Türkiyə Yüksək İxtisas Xəstəxanasında ixtisas təhsili aldığını diqqətə çatdırıb. Xəstələr arasında öd yolları, mədə-bağırsaq, portal hipertenziya, qaraciyər patologiyası ilə üzləşənlərin üstünlük təşkil etdiyini bildirib. Ümumiyyətlə, şöbədə açıq əməliyyatların aparılmadığını və burada çalışan həkimlərinin protokol qaydalarına əməl etdiyini vurğulayıb. Açıq əməliyyatların əksər hallarda xəstə üçün problemlər yaratdığını qeyd edib: "Açıq əməliyyatdan sonra xəstələrin bir sıra problemlərlə üzləşdiyinin şahidi oluruq. Bitişmələr əmələ gəlir. Bəzən öd yollarında yaddan çıxan daşlar olur. Xəstələrdə ağırlaşma hallarına daha çox rast gəlinir.

Amma müasir avadanlıqlardan istifadə bizə əməliyyat zamanı öd yollarını təkrar yoxlamağa imkanlar yaradır."

Həkim söhbətimiz zamanı xəstələrdə daxili qanaxmaya səbəb olan məqamlara da toxunub. Bildirib ki, buna səbəblərdən biri əksər hallarda xəstələrin öz sağlamlıqlarının qayğısına biganə yanaşmasıdırsa, digər səbəbi isə həkimlərin xəstələri müalicə edərkən zəruri olan bəzi məsələlərə diqqət yetirməməsidir: "Bunun üçün bir misal çəkim, xəstə tutaq ki, hepatitə görə qaraciyərindən 3 ildir müalicə alır. Həkim bu müddət ərzində bir dəfə də olsun onun mədəsini və ya yemək borusunu müayinə etmir. Nəticədə mədədə və ya yemək borusunda venalar varikoz genişlənir və profuz qanaxmaya səbəb olur. Ona görə həkimlər müalicə zamanı, əsasən məsələnin bu tərəfinə də diqqət yetirməlidirlər."

Dosent T.Rzayev söhbətinin sonunda hər kəsin bu və ya digər təhlükələrlə üzləşməməsi üçün 40 yaşdan yuxarı rutin olaraq ildə bir dəfə, risk təşkil edən xəstələrin isə protokola uyğun endoskopik müayinədən keçmələrini tövsiyə edib. Belə olarsa, xəstəliklərin yarada biləcəyi ağırlaşma hallarının zamanında aradan qaldırılacağının mümkünlüyünü vurğulayıb.

Qeyd edək ki, T.Rzayev öz sahəsi üzrə davamlı olaraq biliklərini artıran, öz üzərində işləyən həkimlərimizdəndir. O, endoskopiya sahəsindəki yeniliklər, tətbiq olunan yeni üsullar ilə yaxından tanış olmaq, tibbi bilik və təcrübəsini daha da artırmaq məqsədilə daim keçirilən beynəlxalq konfrans, seminar və vorkşoplarda da iştirak edir. Sonuncu dəfə isə bu il yanvarın 10-da İstanbulun Bezmialem Universitendə keçirilən konfransda iştirak edib. Konfrans zamanı endoskopiyanın son naliyyətləri ilə yaxından tanış olub və müasir avadanlıqların tətbiq ilə aparılan əməliyyatlarda iştrak edibdir. Onun iştirak etdiyi ERCP və EUS vorkşopda 18 ölkədən 230 nümayəndə təmsil olunub.

**Qabil ABDULLAYEV**

# İnsan papilloma virusları

**İPV (HPV - Human papillomavirus) geniş yayılmış və cinsi yolla yoluxan infeksiyanı (CYYİ) törədən virusdur. İPV-nin çox sayda müxtəlif tipləri vardır. Müəyyən növləri genital (cinsi) nahiyədə ziyillərin və xərçəngin əmələ gəlməsi daxil olmaqla, bir sıra sağlamlıq problemləri yarada bilər. Əksər hallarda klinik əlamətlər olmur və ya olduqda da sağalma 1-2 il müddətində özbaşına baş verir. Bəzi hallarda isə problemlərin qarşısının alınması məqsədi ilə peyvəndlərdən istifadə edilir.**




Virus daşıyıcısı ilə cinsi əlaqədə (əsasən vaginal və ya anal) olduqda yoluxma baş verə bilər. Hətta virus daşıyan şəxsdə heç bir əlamət və ya simptom olmadıqda infeksiya ötürülə bilər. Bir cinsi partnyoru olduğu halda belə hər bir fəal cinsi həyatı olan insanın virusa yoluxması mümkündür. Xəstəliyin simptomları bir neçə ildən sonra inkişaf edə bilər və bu səbəbdən insanın yoluxma vaxtını təyin etmək çətindir.

Əksər hallarda İPV özbaşına keçir və hər hansı bir sağlamlıq problemi yaratmır. Ancaq bəzi hallarda genital şişuclu kondilomaların, ziyillərin və xərçəngin əmələ gəlməsinə səbəb ola bilər. Genital ziyillər kiçik və ya böyük ölçüdə, tək və ya qrup, yastı və ya ucu biz, yaxud gül kələmi formalarında müşahidə olunur. Tibb işçisi genital nahiyəni müayinə etdikdə onları asanca təyin edə bilər.

İPV uşaqlıq boynunda və digər xarici cinsiyyət orqanları və ya anus nahiyələrində də xərçəngin yaranmasına səbəb ola bilər. Virusun müxtəlif tipləri fərqli sağlamlıq problemləri törədir. Məsələn, İPV-nin müəyyən tipi dil və boğaz nahiyəsində xərçəngə səbəb ola bilər. Bir çox hallarda insan yoluxduqdan sonra xərçəngin yaranmasına qədər illər, hətta onilliklər keçə bilər. Virus daşıyıcısında xərçəng və ya hansısa digər sağlamlıq probleminin inkişaf edəcəyini əvvəlcədən təyin etmək mümkün deyil . İmmun sistemi zəif olan insanlarda (HİV/AİDS) İPV-nin öhdəsindən gəlmək ehtimalı daha azdır və xəstələnməyə meyillilik daha çoxdur.

İPV-yə qarşı peyvənd təhlükəsiz və effektlidir. Peyvənd kişi və qadınları İPV törədən xəstəliklərdən (xərçəng də daxil olmaqla) qoruya bilər. Peyvənd altı ay ərzində üç dəfə inyeksiya şəklində vurulur. Tam üç dozanı almaq çox vacibdir.

Uşaqlıq boynu xərçənginin skrininqinin (yoxlanışı) aparılması da məsləhətdir. 21-dən 65 yaşa qədər olan bütün qadınlar mütəmadi ginekoloji müayinədən keçdikdə uşaqlıq boynu xərçənginin qarşısını ala bilərlər.

Cinsi cəhətdən aktiv olduqda hər zaman lateksdən hazırlanmış prezervativlərdən düzgün istifadə edilməlidir. Lakin prezervativ əhatə etməyən sahələri də İPV infeksiyalaşdıra bilər. Beləliklə, prezervativ tam qorunmanı təmin etmir. Yalnız başqa cinsi partnyoru olmayan bir nəfərlə cinsi əlaqədə olmaqla monoqam əlaqə gözlənilməlidir.

İnsanın "İPV statusunu" təyin edən test həlelik mövcud deyil. Respublikadan xaricdə yalnız uşaqlıq boynunun xərçəngini təyin edə bilən İPV testləri - analiz mövcuddur. Bu testlər 30 və yuxarı yaşlı qadınlar üçün tövsiyə olunur. Kişilərə, yeniyetmələrə və ya 30 yaşa qədər qadınlara həmin testlər yaramır.

Əksər hallarda İPV-yə yoluxan insanlarda heç bir əlamət və ya problemlər yaranmır. Buna görə də onlar yoluxduqları barədə bilmirlər. Cinsiyyət üzvləri nahiyəsində ziyillər əmələ gəldikdə, qadınlarda uşaqlıq boynunun müayinəsi zamanı (Pap testin nəticələrində qeyri-adi hüceyrələrin tapılması) və xərçəng kimi başqa ciddi sağlamlıq problemləri yarandıqda İPV-yə yoluxma halları aşkar olunur.

İPV-yə yoluxmuş qadında hamiləlik zamanı da ziyillər və uşaqlıq boynunun hüceyrələrində qeyri-normal dəyişikliklər inkişaf edə bilər. Bu səbəbdən hətta hamiləlik zamanı xərçəngə qarşı uşaqlıq boynunun adi müayinəsi aparılmalıdır. İPV-yə yoluxmuş qadının uşağı da doğuş zamanı yoluxa bilər.

İnsan papilloma virusunun ayrıca müalicəsi yoxdur. Ancaq virusun törətdiyi sağlamlıq problemlərinin müalicəsi mövcuddur. Belə ki, genital nahiyədə ziyillər həkim tərəfindən müalicə edilə bilər. Müalicə olunmadıqda onlar ya özbaşına ötüb keçə, ya həmin vəziyyətdə qala bilər və ya onların ölçüləri, yaxud sayı arta bilər.

Uşaqlıq boynunun xərçəngönü vəziyyətləri müalicə oluna bilər. Qadın vaxtında müvafiq ginekoloji müayinələrdən keçdikdə və problem aşkar olunduqda xərçəngin inkişafının qarşısını almaq mümkündür.

İPV-yə səbəb olan başqa orqanların xərçəngi də erkən aşkar edilib müalicə olunduqda tam sağalma mümkündür.

**Sevinc İSMAYILOVA,**
*I Mamalıq-ginekologiya kafedrasının assistenti*

# Süd məhsulları və onların istehlak qaydaları

**Süd və süd məhsulları geniş istifadə olunan əvəzsiz qidalardır. Onlar yaxşı stimulyator rolu oynayır və orqanizmə daxil olan başqa qida maddələrinin mənimsənilməsi prosesini sürətləndirir.**



AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, südün yüksək bioloji müalicəvi xassəsi onun tərkibindəki qiymətli zülalların, asan həzm olunan yağların və müxtəlif vitaminlərin zənginliyi ilə izah edilir.

Tərkibi C vitamini, dəmir, makro və mikro elementlərlə zəngin olan süd və süd məhsulları orqanizm üçün faydalıdır. Həmin məhsulların tərkibində xüsusilə, uşaqların, hamilə qadınların və yaşlıların sümük sağlamlığı üçün vacib olan kalsium, fosfor və digər minerallar var. Süd məhsullarının tərkibində orqanizmin normal inkişafını təmin edən bütün maddələr optimal nisbətdədir. Orta yaşlı insanlar gündə 200 ml, uşaq və yeniyetmələr, eləcə də hamilə qadınlar 600-800 ml süd istehlak etməlidir.

Çöküntüsüz və seliksiz, dadı təmiz, kənar iysiz, rəngi ağ sarıya çalan məhsul daha təbii və keyfiyyətli sayılır. Pasterizə edilmiş süd xəstəlik yaradan faktorlardan tamamilə, digər kiçik təsiredici faktorlardan və qismən təmizlənmiş qida məhsuludur. Soyuq şəraitdə saxlanıldıqda məhsulun davamlılıq müddəti 5 gündür. Həmin məhsullarda xəstəlik törədən bakteriyaların mövcudluğuna yol verilməməli, konsentrasiyası bircinsli olmalıdır. Pasterizə olunmuş süd soyuducuda yazyay aylarında 4-5 dərəcə temperaturda 1 gün, qış aylarında isə 2-3 gün saxlanıla bilər.

Saxlanma müddəti bitəndən sonra südün qida rasionuna daxil edilməsi ciddi təhlükə mənbəyi rolu oynayır. Ona görə də süd alarkən və ondan istifadə zamanı diqqətli olmaq lazımdır.

# Üç yaşlı uşaq uğurla əməliyyat olundu

## Tədris Cərrahiyyə Klinikasının həkimi ölkəmizdə ilkə imza atıb

◆ **Bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının uşaq ürək cərrahı Dr. Ramal Həsənov ölkəmizdə bir ilkə imza atıb. Ebstein anomaliyası diaqnozu ilə klinikaya qəbul edilən 3 yaşlı Cahid Nəsirovu əməliyyat edib. Xəstəliyin xüsusiyyəti ilə bağlı məlumat verən cərrah R.Həsənov bildirib ki, Ebstein anomaliyası anadangəlmə ürək xəstəliklərinin bir faizdən də azına rast gəlinən bir xəstəlikdir**



Həkimin sözlərinə görə, bu anomaliya ilk dəfə Wilhelm Ebstein tərəfindən 1866-cı ildə aşkar edilib: "Etiologiyası multifaktorialdır. Bu tipli xəstələrdə trikuspid qapağın septal və posterior lifletinin sağ ventrikul apeksinə doğru anormal yerləşimi mövcud olur. Sağ ventrikulun həqiqi anulus səviyyəsi ilə yalançı anulus səviyyəsi arasındakı sahə atrializə olur. Sağ ventrikulun ümumi həcmi bununla bağlı olaraq azalır".

Cərrah R.Həsənov Ebstein anomaliyasının ağırlıq dərəcəsindən asılı olaraq 4 tip olduğunu bildirib. C.Nəsirovda 3-cü tip Ebstein anomaliyası və ASD (Qulaqcıqlararası Çəpər defekti) aşkarlandığını qeyd edib. Xəstə elektofizioloji müayinə olunan zaman hər hansı bir aberrant yol aşkarlanmadığını deyib: "Xəstədə Da-Silvanın Cone proseduru ilə tricuspid qapaq təmiri həyata keçirildi. Onda yuxarı boş vena və sağ ağciyər arteriyası arasında ikiyönlü kavo-pulmonar anastomoz (Glenn) qoyuldu və ASD qapadıldı. Bunlarla yanaşı, həmçinin sağ mədəcik və sağ qulaqcıq reduksiyası edildi. Xəstə 3 gün reanimasiya şöbəsində qaldı və 10-cu gün yaxşılaşma ilə evə yazıldı".

Qeyd edək ki, bu əməliyyat 10 ilə yaxındır ki, kəşf olunub və dünyanın nüfuzlu tibbi mərkəzlərində icra olunur.

Cahidin nənəsi Təranə Nəsirova 3 yaşlı nəvəsinin anadangəlmə ürək qüsurlu doğulduğunu, xəstəlikdən əməliyyata qədər xeyli əziyyət çəkdiyini bildirib. Ölkənin müxtəlif xəstəxanalarına müraciət etmələrinə baxmayaraq, əməliyyatı heç bir həkim öhdəsinə götürməyib. Yalnız cərrah R.Həsənov bu ağırlığı çiyinlərinə götürərək uğurla başa çatdırıb. Əməliyyat olunduğu 10 gün ərzində nəvəsində xeyli irəliləyişin olduğunu bildirən nənə, C.Nəsirovda əsasən təngənəfəsliyin aradan qaldırıldığını bildirib.

Nənə, uşağın valideynləri Nurlan və Ağca Nəsirovlar belə bir əməliyyatı uğurla həyata keçirdiyinə və övladlarını yenidən həyata qaytardığına görə, həkimə dərin təşəkkürlərini bildirib.

# Yanvarın 26-sı Ümumdünya Cüzam Xəstələrinə Yardım Günüdür

◆ **Hər il yanvarın sonuncu bazar günü Ümumdünya Cüzam Xəstələrinə Yardım Günü kimi qeyd edilir.**



AZƏRTAC xəbər verir ki, həmin gün 1953-cü ildə təsis edilib. Bu, bütün həyatını qorxunc xəstəliklə mübarizəyə həsr etmiş fransız yazıçısı və jurnalisti Raul Folleronun uzun illər göstərdiyi səylər nəticəsində mümkün olub. Bu günün qeyd olunmasında məqsəd problemə yalnız tibb işçilərinin deyil, həm də geniş ictimaiyyətin, inzibati idarəetmə orqanlarının, ictimai təşkilatların, işgüzar dairələrin, xeyriyyəçiliklə məşğul olan fondların, dini icmaların və ayrı-ayrı şəxslərin diqqətini cəlb etməkdir.

Cüzam xəstəliyini ilk dəfə 1873-cü ildə norveçli həkim Herhard Hanzen aşkar edib. Xəstəlik nəticəsində ən çox dəri, yuxarı tənəffüs yolları və periferik sinirlər zədələnir. Həmin toxumalarda xarakterik iltihab ocaqları - qranulomalar (onlara leproma deyilir) əmələ gəlir. Onu bəzən lepra və ya prokaza, yaxud Hanzen xəstəliyi də adlandırırlar.

Cüzam bəşəriyyətə məlum olan ən qədim xəstəliklərdən biridir. Bu xəstəlik haqqında məlumatlara eradan əvvəl XV-X əsrlərə aid olan qədim yazılı abidələrdə rast gəlinir. Tibb elminin müasir uğurları sayəsində dünyada 14 milyon insan bu qorxunc xəstəlikdən xilas olub. Cəsarətlə söyləmək olar ki, dünyanın təxminən 100-ə yaxın ölkəsində cüzam xəstəliyi tamamilə yox dərəcəsindədir. Lakin Hindistan, İndoneziya, Banqladeş, Braziliya və Mərkəzi Afrikanın bəzi ölkələrində bu xəstəlik ciddi problem olaraq qalır.

Ölkəmizdə cüzam xəstələrinin sayı çox azdır və son illər ona rast gəlinmir. Həmin xəstəliyə mübtəla olanlar Bakının Umbakı qəsəbəsi ərazisində yerləşən Respublika Cüzam Xəstəxanasında dövlət vəsaiti hesabına müalicə olunurlar.

# "Microsoft" kibertəhlükəsizlik mərkəzi yaradacaq

**"Microsoft" kibertəhlükəsizlik mərkəzi yaradacaq. Şirkət yeni mərkəzi üçün məkan olaraq Şimali İrlandiyanın paytaxtı Belfastı seçib. Mütəxəssislər qeyd edirlər ki, 2030-cu ilə qədər Şimali İrlandiya bu sahədə 5000-ə qədər əməkdaşın çalışdığı kibertəhlükəsizliyin qlobal mərkəzi kimi tanınacaq.**




"BBC News" telekanalının Rusiya xidmətinin məlumatına görə, layihə çərçivəsində səksən beş yeni iş yeri yaradılacaq. Bu məqsədlə bu ölkənin İqtisadiyyat Nazirliyi 800.000 funt sterlinq vəsait ayıracaq.

"Microsoft" şirkətinin nümayəndəsi Darren Dillon bildirib ki, "Microsoft" Avropa, Orta Şərq və Afrikadakı ən böyük korporativ müştərilərinə dəstək verəcək.

# Əllərdə əsmə



**Həyatımızda bəzən sevinc, bəzən üzüntü, bəzən də əsəb və gərginlik o həddə çatır ki, özümüzdən asılı olmayaraq əllərimiz əsir. Bunun keçici bir hal olduğunu qəbul edərək o qədər də əhəmiyyət vermir, üstündən ötüb keçirik.**

**Əllər həmişə əsirsə, bunun səbəbi nədir?**

Bu barədə həkim-terapevt Solmaz Musayeva deyib: "Çox emosional adamların əlləri daim əsə bilər, lakin əsəblərin sakitləşməsi ilə titrəmə də keçib gedir. Əllərdə əsmənin səbəblərindən biri də depressiyadır. Depressiv halın inkişafı hərəkətlərdə kəskinlik və sərtliyin yaranmasına, nəzarətin itməsinə səbəb olur. Bəzi dərman preparatları, məsələn, psixostimulyator, antidepressiant, neyroleptik və litium preparatlarının qəbul edilməsi də əllərdə tremoru artıra bilər. Çay, qəhvə və alkoqollu içkilərin artıq miqdarda qəbulu da əlləri əsdirə bilər, çünki spirtli içkilər sinir hüceyrələrinin susuzlaşmasına və məhvinə səbəb olur. Osteoxondroz zamanı beyin qan dövranının zədələnməsi də əllərin bərk əsməsinə aparıb çıxarır. Bəzən güclü fiziki gərginlik provakasiyaedici faktor olur. Belə tremor uzunmüddətli ağır işdən və ya fiziki məşqlərdən sonra artır. Əllərdə qısamüddətli əsmənin əmələ gəlməsinə səbəb olan amillərdən biri də soyuq hava şəraitidir.

Həmin xəstəliklər müalicə tələb etməsə də, onlara səbəb olan faktoru aradan qaldırmaqla əllərin əsməsinin qarşısını almaq olar. Lakin iki həftədən artıq davam edən və getdikcə artan tremor həkimə müraciəti və ətraflı müayinəni zəruri edir".

Həkim-terapevtin dediyinə görə, bunlardan başqa bəzi xəstəliklər və psixoloji hallar da əsməni artıra bilər: "Məsələn, ağır metallar, dəm qazı və başqa toksiki maddələrlə zəhərlənmə, alkoqol abstinsensiyası, qanda şəkər səviyyəsinin düşməsi və toksik zob zamanı tremor güclənir.

Patoloji tremor beyin kötüyü, qabıqaltı strukturlar və beyinciyin zədələnməsi səbəbi ilə yaranan əl əsməsinin daimi olması ilə fərqlənir. Həmin xəstələrin həkim nəzarətində olması və vaxtında müalicə edilməsi olduqca vacibdir. Ailəvi tremorun dəqiq səbəbi məlum olmasa da, genetik yolla ötürüldüyü məlumdur, çünki o irsən keçir, əsasən orta yaşlardan sonra özünü büruzə verir, lakin uşaq yaşlarından da başlaya bilər.

Parkinson xəstəliyinin səbəbi qabıqaltı strukturların zədələnməsi və dofamin sintezinin azalmasıdır. Parkinsonizm zamanı müşahidə olunan əl əsməsi sakit vəziyyətdə olur. Xəstə əlləri ilə sanki pul sayır və ya kürə yuvarlayır. Hər hansı bir hərəkətə başladıqda isə titrəmə zəifləyir və ya tamamilə itir. Xəstəlik adətən 50 yaşdan sonra inkişaf edir".

# Yapon tədqiqatçılar iPS hüceyrələri vasitəsilə uğurlu kardioloji əməliyyat barədə məlumat yayıblar

**Yapon tədqiqatçılar qrupu iPS hüceyrələrindən istifadə olunmaqla keçirdikləri əməliyyatın uğurla başa çatması barədə məlumat yayıb.**



AZƏRTAC Yaponiya KİV-lərinə istinadla xəbər verir ki, bu, bütün dünyada ilk belə kardiocərrahi əməliyyat hesab olunur.

Osaka Universitetinin professoru Yoşiki Savanın rəhbərlik etdiyi mütəxəssislər qrupu iPS hüceyrələrindən istifadə etməklə insanın ürək əzələsinin toxumalarını yaradıb. Həmin qrup kəskin ürək xəstəliyi olan pasiyentlər üçün xəstə orqana bu alimlər tərəfindən yaradılmış əzələ toxumasının yerləşdirilməsini nəzərdə tutan müalicə üsulu tətbiq edir.

Alimlər qrupu cari ayın əvvəllərində keçirdikləri həmin əməliyyat barədə məlumat yayıb. Həkimlərin rəyinə görə, həmin xəstənin terapiya yolu ilə müalicəsi mümkün deyildi. Xəstənin yaşı və cinsi barədə əlavə məlumat verilmir.

Əməliyyatı uğurla başa çatan xəstənin yanvarın 27-də adi palataya köçürüldüyü qeyd edilir.

# SƏNAYE İSTEHSALATI VƏ ƏTRAF MÜHİT

**XX1 əsrdə sənaye istehsalatı prosesi zamanı ətraf mühitin mühafizəsi ekoloji problemə çevrilmişdir. Məlumdur ki, istənilən sənaye sahəsinin inkişafı elmi-texniki tərəqqinin və insanların həyat fəaliyyətinin nəticəsidir və eyni zamanda sənaye müəssisələri xammalın əsas istifadəçisi və istehsalat mühitinin, eləcə də ətraf mühitin əsas çirklənmə mənbələridir. İstehsalat mühiti əmək şəraitinin ən vacib sanitar-gigiyenik səciyyəsi olub, insanın əhval-ruhiyyəsinə, iş qabiliyyətinə və əmək məhsuldarlığına əhəmiyyətli dərəcədə təsir edir.**

Təəssüf ki, dünyada mütləq təhlükəsiz istehsalat sahəsi olmamış və hazırda da mövcud deyildir; nə bizim məişət həyatımızdan, nə də ki, istehsalat mühitindən insan sağlamlığı üçün təhlükəli olan sonsuz sayda amilləri çıxarmaq insanın iradəsi xaricindədir. Ən əsas amillər: yer səthində nüvə enerjisi mənbələrinin sayının və gücünün artması ilə əlaqədar olan, nəqliyyat və sənaye küyü, informasiya sahələrinin elektromaqnit şüalanmaları, habelə iqlim hadisələri (istixana effekti, Yerin ozon qatının zədələnməsi, ozon dəliklərinin əmələ gəlməsi,yüksək keçiricilikli qısa işıq dalğalarının artması) kimi fiziki amillərdir.

Kimyəvi amillərlə havanın, suyun,qida məhsullarının çirklənmə mənbələri elektrostansiyalar və atmosferə tullantılar (karbon oksidləri, kükürd-dioksid, azot oksidləri, ağır yağlı birləşmələr) xaric edən digər energetik qurğular, kimya-metallurgiya, neftin yenidən emalı müəssisələri və sənayenin digər sahələri, müxtəlif nəqliyyat növləri (yanacağın yanması zamanı alınan məhsullar) və kənd təsərrüffatı obyektləridir.

Bioloji amillərə qeyri-antropogen, bitki və heyvan mənşəli toksinlər və allaergenlər aiddir.

Müasir texnologiyaların və avadanlıqların nəzarətsiz tətbiqi, habelə kompüterlərin, videoterminalların, avtomastlaşdırılmış distansion idarəetmə sistemlərinin və əməyin təşkilinin yeni formalarının istehsalat proseslərinə tətbiqi yalnız orqanizmin funksional gərginliyi ilə deyil, həm də xəstəliklərin və psixi-sosial amillərlə (streslər, məcburi iş tempi, yorulma) əlaqədar olan travmaların mümkün olması ilə əlaqədardır ki, bunlar da ümumi və peşə ilə əlaqədar olan xəstəliklərin və zəhərlənmələrin artmaslna səbəb ola bilər.

Tədqiqatların göstərdiyi kimi, ekoloji, istehsalat amillərinin və bir neçə amilin birgə təsiri xəstəliklərin gedişinin dəyişməsinə, onların yeni formalarının meydana çıxmasına, immunoloji reaktivliyin dəyişməsinə, allergik xəstəliklərim artmasına, təbii adaptasiya mexanizmlərinin pozulmasına gətirib çıxara bilər.

Elmi-texniki tərəqqinin nailiyyətlərinə əsaslanan müasir sivilizasiya istehsalat mühitinə və ətraf mühitə qayğıkeş və rasional münasibət olmadan təsəvvür edilməzdir.

Ölkəmiz zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan bir dövlətdir. Lakin uzun illərdən bəri yığılıb qalmış ekoloji və sənaye istehsalatı, məişət tullantılarının zərərsizləşdirilməsi problemləri vaxtında öz həllini tapmadığı üçün Respublikamızın ətraf mühiti həddən artıq çirklənmişdir. Bunu nəzərə alaraq ümumiyyətlə, son illər ərzində, həm də halhazırda ölkəmizdə ekoloji durumun yaxşılaşdırılması istiqamətində aparılan "Ekoloji strategiya", "Ekologiya ili", "Ekologiya və ətraf mühitin mühafizəsi"layihələri üzrə işlər və sənaye istehsalı və ətraf mühitin bir sıra problemləri aparıcı yerli və beynəlxalq təşkilatların proqram sənədlərində öz əksini tapmışdır. Son illər ərzində ardıcıl həyata keçirilmiş sağlamlaşdırıcı və profilaktik tədbirlər, o cümlədən "Ekologiya ili" çərçivəsində həyata keçirilən mühüm tədbirlər, minlərlə ağacın əkilməsi, yeni parkların salınması, nəqliyyat və su yolların, yeni su təchizatı kəmərlərinin çəkilməsi və bu tədbirlərdə dövlət rəhbərinin özünün bilavasitə iştirakı ölkəmizdə ətraf mühitin qorunmasına göstərilən xüsusi qayğı və diqqətin göstəricisidir.



Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən ekologiya və ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi bu sahədə böyük nailiyyətlər əldə etməyə imkan vermişdir. Fondun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Xanım Əliyevanın və Fondun vitse-prezidenti Leyla Xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihələr çərçivəsində görkəmli mütəfəkkir və dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gün ərzində 650 min ağac əkmə aksiyası ölkəmizin bütün şəhər və rayonlarında geniş ictimaiyyət, əhali, tələbələr və gənclər tərəfindən böyük maraq və həvəslə qarşılanmışdır.

Hazırkı dövrdə ekoloji siyasət texnoloji problemlərin sənaye müəssisələrinin yerləşdiyi regionlarda istehsal fəaliyyətinə və ekosistemə texnogen təsirin minimallaşdırılmasına imkan verən optimal həllinin axtarışına yönəlmişdir. Enerjiyə qənaət edən texnoloji avadanlıqların tətbiqi, erqotik tədbirlərin həyata keçirilməsi, gigiyenik normativlərə, standartlara, tələblərə, təlimatlara, göstərişlərə və s. riayət olunması, müəssisənin hər bir işçisinin fəaliyyəti, məsuliyyəti və ümumilikdə biosferə atılan qəza tullantılarının zərərli təsirinin azalmasına yönəlmiş bütün tədbirlər, müntəzəm olaraq ekoloji monitorinqlərin aparılması sənaye müəssisələrinin ekoloji təhlükəsizliyini təmin edir. Ətraf mühitin qorunması, əməyin təhlükəsizliyi və mühafizəsi ilə əlaqədar risklərin azaldılması, təbii resursların səmərəli istifadəsi, hər bir müəssisədə ətraf mühitin mühafizəsinin idarəolunma sistemi ümumilikdə BST (beynəlxalq standartlaşdırma təşkilatı) beynəlxalq standartlar seriyalarının tələblərinə cavab verməlidir.

Biz - möhtəşəm Yer kürəsinin insanları gözəl dünyamızı dərk edib, sağlam həyat tərzinin qorunması üçün insanı, xüsusilə də bizi əhatə edən canlı təbiəti böyük sevgi və qayğı ilə əhatə etməliyik.

**Ruxsarə ƏLİYEVA,**
*professor*
**Cəmilə SALİHOVA,**
*dosent*




**Yer kürəsinin mənzərəsini əks etdirən unikal və orijinal qurğunun maketinin fotosu**

50 metr hündürlükdə olan, 6 mərtəbədən ibarət qurğu yer kürəsi kimi soldan sağa fırlanaraq dövrə vuracaq. Kürənin xaricində coğrafi varlıqlar – meşələr, çaylar, səhralar, yollar, şəhərlərdəki simvolik tarixi abidələr, yarı batmış Titanik gəmisi və Xocalı soyqırımı maket formasında əks olunacaq.

**Müəllif: Məcid NAMAZOV,**
*Normal fiziologiya kafedrasının əməkdaşı*

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin V kurs, 704b qrup tələbəsi Hüseynova Nərmin Elşən qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, 118a-5b qrup tələbəsi Hacı Güngör Bilal oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 117r-5 qrup tələbəsi Qurbanova Dilbər Mahmud qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, 260-cı qrup tələbəsi Nuriyeva Nigar Fariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 117a-11 qrup tələbəsi Rəfiyeva Leyla İslam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, 419a-4a qrup tələbəsi Aynaz Mahmoud Alilou Maghsoud qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, 418a-2a qrup tələbəsi Betül Çelen Mustafa qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Bakı şəhəri, Binəqədi rayonu, M. Ə. Rəsulzadə qəsəbəsi, Katib Şamilov küçəsi, ev 27 ünvanda yaşayan Nəsibov Təvəkgül Cəmil oğluna verilmiş ona məxsus fərdi yaşayış evinin çıxarışı ( kupça) itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, 418r-1b qrup tələbəsi Vəliyeva Nərmin Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, 717i-1 qrup tələbəsi Ghaıth Albachaan Monir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin redaksiyası, ETM-in kollektivi, Qidalanma və kommunal gigiyena, Uşaq- yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedralarının əməkdaşları Qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhmədova bacısı

**Sarıtel xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq fakültəsinin dekanlığı, "Təbib" qəzetinin kollektivi, Farmakologiya, Biofiziki və bioüzvi kimya kafedralarının əməkdaşları Əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqbova əmisi

**Əli Yaqubovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika, İnsan anatomiyası və terminologiya kafedralarının əməkdaşları , "Təbib" qəzetinin kollektivi Tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimova qardaşı

**Məzahir müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Epidemiologiya kafedrasının əməkdaşı Nərgiz Zeynalova ailəsi ilə birlikdə iş yoldaşı Bahar Ələkbərovaya atası

**Aydın Ələkbərovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əsaslı kitabxananın əməkdaşları iş yoldaşları

**Gülnarə İsmayılovanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi iş yoldaşları Vüsalə Kərimovaya əzizi

**Minayə Tağıyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın müəllimi Səcidə Tağıyevaya qızı

**İlahə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın müəllimi Zümrüd Abaszadəyə qaynatası

**Məmmədrza Kərimovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Biofiziki və bioüzvi kimya kafedrasının əməkdaşları Bioloji kimya kafedrasının dosenti

**Rüstəm Cəfərovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200